# Tarı bülbül kimi oxuyurdu

## Hacı Məmmədovun tarı bu gün də susmayıb



■ Flora XƏLİLZADƏ
*əməkdar jurnalist*

**Onda bir qəvvaslıq var idi. Topladığı incilər isə musiqi mədəniyyətimizin dərin ümmanında hər kəsin əli yetməyən muğamlar olardı. Məşhur tarzən Hacı Məmmədovun çalğısını dinləyənlər, onun sənətinə, sözün həqiqi mənasında, bələd və aşiq olanlar bilirlər ki, Hacı Məmmədovun ifaçılığı ayrıca bir məktəb idi. Əlbəttə, milli musiqimizin çox peşəkar ustad tarzənləri olub. Qurban Pirimov, Bəhram Mansurov kimi unudulmazların böyük məhəbbətlə yaratdığı sənət məktəbindən dərs alan, öyrənən Hacı Məmmədov milli musiqimizin ən görkəmli nümayəndələrindən biri idi. O, Bülbül, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Əbülfət Əliyev, Rəşid Behbudov, Şövkət Ələkbərova, Yaqub Məmmədov, Rübabə Muradova, Sara Qədimova və başqa görkəmli sənətkarları tarda dəfələrlə müşayiət etmişdir.**

61 il ömür sürmüş Hacı Məmmədov sənətə gəldiyi gündən muğamlarımızı xüsusi məharətlə ifa edərək bu sahənin zirvəsində dayanan istedad sahibi idi. Onun haqqında fikir söyləyənlər həmişə məhəbbətlə vurğulayırlar ki, bu qüdrətli sənətkarın çalğısı akademik çalğı idi. Ona qulaq asdıqca musiqinin ahənginə uyğun olaraq adamın gözləri qarşısında bir mənzərə canlanır, hadisələr cərəyan edirdi. Cahangir Cahangirovun böyük məhəbbətlə bəstələdiyi unudulmaz Rəşid Behbudovun uzun illər şövqlə, həzinliklə oxuduğu "Ana" mahnısı Hacı Məmmədovun tarında başqa bir aləm idi. Bu alətin hər pərdəsindən qopan melodiyada qeyri-adi bir nisgil, həsrət və təsir var idi. O, tarda xırdalıqlar etməyi elə məharətlə bacarırdı ki, həqiqətən də, onun əlinin təmasını duyub, ürəyindən su içən bu qədim milli musiqi alətindən qopan sədalarda çox qeyri-adi bir melodiya duyulurdu. Hacı çalanda müğənniyə də heç ehtiyac olmurdu. Çünki bu məharətli tarzənin can və həyat verdiyi, böyük eşqlə sinəsinə sıxdığı tar özü dil açırdı. Sözlər bu sədadan elə aydın, mənalı, yanıqlı duyulurdu ki...

O, 1920-ci ilin aprelində Şamaxıda anadan olub. Erkən Bakıya köçən Hacı Məmmədovun ailəsində musiqiyə, sənətə böyük maraq vardı. Atası Məhəmməd kişi tarda gözəl havalar çalardı. Hacı da saatlarla onun yanında dayanar, məhəbbət və maraqla tardan gələn qəribə səslərə qulaq asardı. Bir dəfə atası oğlunun marağını görüb tarı ona uzadaraq duyumunu yoxlamaq istəyib. Balaca Hacı tarı heç tutmağı da bacarmayıb. Onun bu xamlığı atasının xoşuna gəlməyib. Kədərlə "səndən musiqiçi çıxmaz" - söyləyib. Amma əmisi Hüseyn Hacının istedadlı olduğunu hamıdan əvvəl duyurmuş. Buna görə də bir gün qardaşı oğlunun arzusu ilə ona tar alıb. Hacı bu tarı məhəbbətlə sinəsinə sıxanda 8 yaşı vardı. Maraqlı odur ki, bu, təlim tarı yox, əsl tar olub. Hacı Məmmədov ömrünün sonuna kimi o tardan ayrılmayıb. Dünyasını dəyişəndən sonra isə illər boyu Hacı Məmmədova bağrı-badaşlıq etmiş həmin möhtəşəm tarı - sənət sirdaşını susmağa qoymayıblar. Oğlu Tahir danışır: "Ürəyimiz gəlmədi, atamın məhəbbətlə sinəsində gəzdirdiyi, dilləndirdiyi tar sükuta qərq olsun. Ona görə də biz bu yadigar musiqi alətini atamın çox sevdiyi, tələbəsi Ağasəlim Abdullayevə bağışladıq. Sağ olsun, o, bu tarda həqiqətən, vaxtilə Hacı Məmmədovun məharətlə ifa etdiyi muğamları ehtiramla və özünəməxsus ustalıqla səsləndirir. Bizə elə gəlir ki, atamın tarı əgər bu gün də susmayıbsa, deməli, onun arzuları, istəkləri yaşayır".

Ötən əsrin 30-cu illərində ölkəmizi bürüyən repressiyaların bir caynağı da milli musiqimizə ilişmişdi. Sapı bizdən olan baltalarsa bu fürsəti fövtə verməyərək nala-mıxa döyməkdə davam edirdilər. Hətta o dövrün mətbuat səhifələrində tara işğalçı münasibətin əks-sədası olan şeirlər, məqalələr dərc edilib. "Oxuma, tar, səni sevmir proletar" - deyənlərə cavab olaraq Mikayıl Müşfiq yazırdı: "Oxu tar, səni kim unudar". İllər də təsdiqlədi





ki, həqiqətən də, milli musiqi alətlərimizin şahı sayılan tar heç zaman atıla və unudula bilməz.

Sənətşünas Fikrət Əbülqasımov Hacı Məmmədovun ifaçılıq sənətində varislik və yaradıcılıq məsələlərini əhatə edən araşdırmalarında yazırdı: "Onun ustalığı yalnız ürəklərə yol tapan musiqinin gözəlliyi deyil, çalınan əsərlərin solo tarın ifasında yeni, parlaq nümunələrinin təqdimatıdır. Hacı Məmmədov hər şeydən əvvəl, tarın böyük imkanlarının melodik düşüncələrlə üzvi vəhdətini yaratmağı bacarırdı. O, tarın sirlərinə dərindən bələd idi. Hacı Məmmədov tarın fərdi, çalğı xüsusiyyətlərini səsləndirdiyi musiqiyə ibrətamiz ustalıqla əlaqələndirirdi".

Hacı Məmmədovun yaradıcılığında muğamlar bir zirvədir. Bu sənət incilərinin də içərisində "Orta Mahur"un xüsusi yeri var. Tədqiqatçılar və mütəxəssislər söyləyirlər ki, o, bu muğamı elə ustalıqla ifa edirdi ki, ona qulaq asanlar yalnız bu sözləri pıçıldayırdılar: "İlahi, bu nə möcüzədir". Həqiqətən də, Hacı Məmmədov qeyri-adi çalğı sahibi, virtuoz ifaçı idi. Bu gün də onun lent yazılarını dinləyəndə adamın varlığını bir heyrət bürüyür. O mahnını, o muğamı Hacı çalırdısa, əslində, müğənniyə heç ehtiyac duyulmurdu. Tarın simləri dil açıb elə yanıqlı, elə nəfəsdə oxuyur ki, bu təsiri heç bir ifaçılıqla müqayisə etmək olmaz. Hacı Məmmədovun tara olan qeyri-adi məhəbbətinin və vurğunluğunun nəticəsi idi ki, çalğıdan ifaçının kimliyini təyin etmək mümkündür. Bu bəxtiyarlıq hər sənətkarın taleyinə yazılmayıb. Səsdən tanınmaq mümkündür. Amma alətdə kimin çaldığını müəyyənləşdirmək, əlbəttə, bu, ifaçının istedadından, məharətindən, fərqli qabiliyyətindən asılıdır. Belə sənətkarları Azərbaycanda barmaqla saymaq olar. Kamanda Habil Əliyev, royalda Gülarə Əliyeva, qaboyda Kamil Cəlilov, tarda Qurban Pirimov, Hacı Məmmədov...

Unudulmaz tarzənin bioqrafiyası ilə tanış olanda maraqlı faktlarla üzləşdik. Azərbaycan musiqi mədəniyyətinin inkişafında özünəməxsus rolu olan, uzun müddət Azərbaycan Xalq Çalğı Alətləri Orkestrində işləyən, Azərbaycan Dövlət Filarmoniyasında solist kimi çalışan Hacı Məmmədov ixtisasca həkim imiş. O, 1948-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş, uzun müddət müxtəlif xəstəxanalarda həkim-cərrah, baş həkim müavini, baş həkim işləmişdi. Onun əllərindən şəfa tapmış insanlar söyləyirlər ki, Hacı həqiqətən də, bacarıqlı həkim olub. Uzun müddət Naxçıvan şəhər xəstəxanasında, Sumqayıtda və Bakıda insanların sağlamlığı keşiyində dayanan Hacı Məmmədov harada olubsa, hansı sənətin qulpundan yapışıbsa, hörmət və izzət qazanıb. Onu təkcə xəstələri deyil, sənət dostları, pərəstişkarları da çox sevərdi. Xüsusilə də, məşhur musiqiçilər Hacı Məmmədova nəzakət və ehtiramla yanaşardılar.

**Hacı Məmmədovun yaradıcılığında muğamlar bir zirvədir. Bu sənət incilərinin də içərisində "Orta Mahur"un xüsusi yeri var. Tədqiqatçılar və mütəxəssislər söyləyirlər ki, o, bu muğamı elə ustalıqla ifa edirdi ki, ona qulaq asanlar yalnız bu sözləri pıçıldayırdılar: "İlahi, bu nə möcüzədir". Həqiqətən də, Hacı Məmmədov qeyri-adi çalğı sahibi, virtuoz ifaçı idi. Bu gün də onun lent yazılarını dinləyəndə adamın varlığını bir heyrət bürüyür.**

Tarda çalmağı müstəqil öyrənən Hacı Məmmədov ömrünün sonuna kimi müxtəlif mədəniyyət ocaqlarında, ölkəmizdən çox-çox uzaqlarda, qastrol səfərlərində, mədəni tədbirlərdə uğurla iştirak etmişdir. Həmişə də musiqimizin təbliğində, çiçəklənməsində, sevilməsində nümunəvi fəaliyyət sahibi olmuşdur. Onu həmkarlarından məhz özünəməxsus qeyri-adi çalğısı fərqləndirib. Deyilənə görə, on yaşı olanda onu Azərbaycan Dövlət Şərq Orkestrinə qəbul ediblər. Kollektivə hamıdan sonra gələn bu oğlan uşağının qeyri-adi istedad sahibi olması Üzeyir Hacıbəylinin də diqqətini çəkib. O, bu çəlimsiz uşağı yoldaşlarına göstərərək söyləyib: "Baxın, gördüyünüz sarıbəniz oğlan gec-tez sizləri tamam ötüb keçərək birinci pilləyə çıxacaq". Dahi bəstəkarın uzaqgörənliklə söylədiyi bu müdrik fikir özünü doğrultdu. Doğrudur, o, özünə peşə kimi həkimliyi seçsə də, içindən gələn arzu, məhəbbət onu başqa bir istiqamətə çəkdi. Hacı Məmmədovun ilk yadda qalan uğuru 1939-cu ilin payızında Moskvada keçirilən xalq çalğı alətlərində ifa edən musiqiçilərin müsabiqəsindəki çıxışı oldu. 19 yaşlı gənc yarışda mükafata layiq görüldü. İkinci dünya müharibəsi illərində isə Hacı Məmmədov ön cəbhədə olaraq öz çıxışları ilə əsgərləri qələbəyə ruhlandıran musiqilər ifa edərdi.

Bu gün "Qızıl Fond"da Hacı Məmmədovun özünəməxsus tərzdə, üslubda ifa etdiyi "Zabul Segah", "Bayatı-Şiraz", "Şur", "Çahargah", "Orta Mahur" və başqa muğamlar qorunur.

Həyat yoldaşı Aliyə xanım xatirələrində yazırdı: "Hacı yeganə sənətkar idi ki, özünəməxsus və bənzərsiz bir yol keçdi və məktəbini yaratdı. Onun bütün qələbələrinin ruhunda sədaqətli ürək döyünürdü. Hörmət və nüfuzu da etibarına görə qazanırdı. Ona görə də heç vaxt unudulmadı". Yeri behişt olsun. Aliyə xanım həmişə Hacının üstündə nanə yarpağı kimi əsirdi. Hacının sağlığında da belə idi, haqq dünyasına qovuşandan sonra da. Çox diqqətcil və həssas idi. Allah eləməmiş, əgər kimsə Hacı Məmmədov barəsində yazanda bir kəlməsi yerinə düşməyəydi. Aliyə xanımın halı qarışar, pərişanlıq içində deyərdi: "Hacı bənzərsiz idi, həyatda da, sənətdə də..." Yadımdadır qəzetdə Hacı Məmmədov barəsində bir yazı çıxmışdı, şəkili çox solğun alınmışdı. Aliyə xanım mənə zəng edərək narazılığını bildirdi: " Hacı çox yaraşıqlı idi, məndən istəyərdilər, onun gözəl şəkillərindən verərdim də..." Ürəyim şan-şan oldu. Sevginin dərinliyinə bax!..

Bir çox xarici ölkələrdə Azərbaycan mədəniyyətini ləyaqətlə təmsil edən Hacı Məmmədov xalq artisti adına layiq görülmüş və "Şərəf" nişanı ordeni ilə təltif edilmişdir. 61 yaşında dünyasını dəyişən unudulmaz tarzən Fəxri xiyabanda torpağa tapşırılıb.

...Yenə də həzin bir musiqinin sədaları altında uyumuşduq. "Segah"dan gələn avaz bizi haralara aparmamışdı?! Gözlərimiz önündə yurd yerləri canlanırdı. Sanki döyüş meydanlarından haraylanan bu qeyri-adi sədanı bizə yetirənsə rəhmətlik Hacı Məmmədovun vaxtilə tarda qopardığı haray idi. Bu qeyri-adi musiqinin ürəklərimizdə yaratdığı təlatüm varlığımıza qəribə həyəcan bəxş etdi.

Mütəxəssislərin fikrincə, bu fərqli və qeyri-adi ifaya bir səbəb də Hacının çalğı zamanı mizrabdan əlavə barmaqları ilə tara xüsusi toxunmağı, sığal çəkməyi olub. Əlbəttə, müəyyən xırdalıqların alınmasında bu texniki vərdişlərin də öz rolu var. Amma bizə elə gəlir ki, Hacını fərqləndirən əsas xüsusiyyət tarın altındakı sevgi dolu bir ürəyin çırpınması idi. Hacının tarı onun ürəyindən su içirdi. Hacının tarı bülbül kimi oxuyurdu...